ədalət.2019.-23-24avqustS.13.

Qəşəm İsabəyli

# Nikbinlik zəngi



*Şair Oqtay Rzanın xatirəsinə*

1992-nin sonlarıydı,"Şur" nəşriyyatına
Direktor təyin etmişdi məni
Mədəniyyət Naziri Polad Bülbüloğlu.
.Allah var adamın başının üstündə,
Özü də rüşvətsiz-filansız!
Əlində 50 min olanı yaxına qoymayıb:
-Mənə naşir lazımdı! - Demişdi!
Mən də "Yazıçı"dan gəlmişdim,
"İşıq"da işləmişdim,
Özünütərif olmasın -
Cikini-bikini bilirdim nəşriyyat işinin.
Nazim İbrahimovun idarəçilik məktəbi,
Əjdər Xanbabyevin naşirlik təcrübəsi
Tutmuşdu əlimdən.



Əmrimi alan günü - dar axşamçağı
Üç yerə böldüm sevincimi -
Oqtay Rzaydı, Şəmistan Nəzirliydi,
Bir də mən - "Neftçilər" metrosunun
Çölə çıxışında durmuşduq,
Üçümüz də sevinirdik.
Oqtay Rza hamımızdan çox sevinirdi.
Yerimi qızdırmamış
"Vətən, yas saxlama" kitabını
Nəşr elədik ustadın,
Verdik ki, satıb, xərcini ödəsin.
Onda təzə-təzə dəb olurdu
Müəllifin öz kitabını satması.
Oqtay müəllim də kitabları
Götürüb sevinə-sevinə getdi.
Uzaqdan-yaxından zəng eləyirdi hərdən:
-Qohum (yoldaşı Kürdəmirliydi,
Məni də qohum bilirdi özünə),-
Balaca vətənə gəlmişəm - Salyana,
Yerin məlum - rahatam.
Sənə bir nikbinlik zəngi çalacam
Bu yaxınlarda, darıxma.
Həftənin başı getmişdi, ayağı qayıtdı,
Qapı açıldı, danışa-danışa girdi otağa.
Yerimdən durub qabağına yeridim,
Hiss elədim ki, kefi yoxdu.
-Ustad, soyuqlayıb-eləyibsən nədi?!
-Kaş elə olaydı!
-Sözlü adama oxşayırsan?!
-Adı mənə düşmədi kitabın!
Vətənə təsəlli verirdim, yas saxlama,
İndi özümə təsəlli verən gəzirəm.-
(Üzünə baxa-baxa qalmışdım.)
-İki bağlama kitabdan
Birini də alan olmadı Salyanda...
Balaca bir düzəliş verdim:
-Kiçik vətəndə...
Məzəmmətlə üzümə baxdı:
-Görünür kürü çox olanda,
Kitabdan tox olurlar, - dedi!